# Rəhbər şəxs tərəfindən işçiyə (işçilərə) “Asan İmza” “İş” (Biznes) və ya “Dövlət və bələdiyyə” tipli sertifikat vasitəsilə elektron xidmətlərin imzalama prosesinə məhdudiyyətin qoyulması/aradan qaldırılması üzrə

## İstifadəçi təlimatı

**BAKI -2020**

**Mündəricat**

**Mündəricat**........................................................................................................................2

**1. Ümumi məlumat**..........................................................................................................3

**2. İlkin anlayışlar**..........................................................................................................3

**3. Rəhbər şəxs tərəfindən işçiyə "Asan İmza" "İş" (Biznes) və ya "Dövlət və bələdiyyə" tipli sertifikat vasitəsilə elektron xidmətlərin imzalama prosesinə məhdudiyyətin qoyulması/aradan qaldırılması prosedurunun təsviri**..................................................................4

**4. Rəhbər şəxs tərəfindən xidmət təminatçıları üzrə fərdi seçim əsasında işçiyə (işçilərə) "Asan İmza" "İş" (Biznes) və ya "Dövlət və bələdiyyə" tipli sertifikat vasitəsilə imzalama əməliyyatlarına məhdudiyyətin qoyulması/aradan qaldırılması prosedurunun təsviri**............7

# 1. Ümumi məlumat

Bu sənəd rəhbər şəxs tərəfindən xidmət təminatçıları üzrə fərdi seçim əsasında işçiyə (işçilərə) "Asan İmza" "İş" (Biznes) və ya "Dövlət və bələdiyyə" tipli sertifikat vasitəsilə elektron

xidmətlərinin imzalama prosesinə məhdudiyyətinin qoyulması/aradan qaldırılması prosedurаları əks etdirir.

## 2. İlkin anlayışlar

**“Asan İmza” sertifikatı** – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən imza sahiblərinə təqdim edilən, onu identikləşdirmək üçün nəzərdə tutulan və elektron imzanı yoxlama məlumatlarının imza sahibinə məxsus olması barədə Mərkəzinin verdiyi kağız və ya elektron sənəd.

**Mobil Operator -** Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, fəaliyyət göstərən və “Asan İmza” SİM kartından istifadəni dəstəkləyən Mobil şəbəkə operatoru.

**“Asan İmza” (mobil elektron imza) SİM-kartı** - elektron imza yaratma vasitələrinin təhlükəsizliyi baxımından "Elektron imza və elektron sənəd" haqqında Azərbaycan Respublikasının Qanununun və digər aidiyyəti hüquqi aktların tələblərinə uyğun gələn elektron imza vasitəsi - mobil telefon üçün xüsusi SİM-kart, həm telefon nömrəsinin, həm də elektron imza yaratma məlumatlarının fiziki daşıyıcısı.

**“Asan İmza” PİN/PUK kodları** – “Asan İmza” SİM kartının istifadəsinə imkan verən fərdi, təhlükəsiz identifikasiya kodları. Bu kodlar “Asan İmza” SİM kartının üzərində çap olunaraq, pozulan qat altında gizlədilir. Şəxsiyyətin təsdiqlənməsi üçün PİN 1-dən, elektron sənədlərin imzalanması üçün PİN 2-dən istifadə edilir. PİN 1 və PİN 2 kodlarının blokdan çıxarılması və ya onların dəyişdirilməsi üçün PUK koddan istifadə edilir.

**İstifadəçi ID-si** - Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) tərəfindən “Asan İmza” sertifikatı əldə edilən zaman imza sahibinə təqdim edilən “Sertifikatın aktivləşdirilməsi haqqında” bildirişdə göstərilən 6 rəqəmli, spamdan müdafiə olunmaq üçün istifadə olunan təhlükəsizlik kodu. Bir “Asan İmza” SİM kartı üçün (sertifikatın sayından asılı olmayaraq) bir İstifadəçi ID-si verilir.

## 3. Rəhbər şəxs tərəfindən işçiyə “Asan İmza” “İş” (Biznes) və ya “Dövlət və bələdiyyə” tipli sertifikat vasitəsilə elektron xidmətlərin imzalama prosesinə məhdudiyyətin qoyulması/aradan qaldırılması prosedurunun təsviri

1. www.e-taxes.gov.az Portalına daxil olub “Asan İmza şəxsi kabinet” bölməsi seçilir (Şək.1).




Şək.1

2. Açılan pəncərədə “Asan İmza” mobil nömrəsi və İstifadəçi ID-si daxil edildikdən sonra Şəxsi kabinetə giriş edilir (Şək.2).




Şək.2

3. Növbəti mərhələdə açılan yeni pəncərənin sol menyusundan "İCAZƏLƏR" bölməsində "İŞÇİLƏR" sətri seçilir (Şək.3).




Şək.3

4. Açılmış pəncərədə lazım olan qurum və ya təşkilat seçimi edilir (Şək.4).




Şək.4

5. Növbəti pəncərədə işçinin adı seçilir (Şək.5).



Şək.5

6. Açılmış pəncərədə rəhbər şəxs tərəfindən fərdi seçim əsasında işçinin bir və və ya bir neçə xidmət təminatçısının elektron xidmətlərinə imza prosesi bloklanır/blokdan çıxarılır və dəyişikliklərin tətbiq olunması üçün "Yadda saxla" düyməsindən istifadə edilir (Şək.6).




Şək.6

## 4. Rəhbər şəxs tərəfindən xidmət təminatçıları üzrə fərdi seçim əsasında işçiyə (işçilərə) "Asan İmza" "İş" (Biznes) və ya "Dövlət və bələdiyyə" tipli sertifikatı vasitəsilə imzalama əməliyyatlarına məhdudiyyətin qoyulması/aradan qaldırılması prosedurunun təsviri

1. www.e-taxes.gov.az Portalına daxil olub "Asan İmza şəxsi kabinet" bölməsi seçilir (Şək.1).
2. Açılan pəncərədə "Asan İmza" mobil nömrəsi və İstifadəçi ID-si daxil edildikdən sonra Şəxsi kabinetə giriş edilir (Şək.2).
3. Növbəti mərhələdə açılan yeni pəncərənin sol menyusundan "İCAZƏLƏR" bölməsində "QURUM VƏ TƏŞKİLATLAR" sətri seçilir (Şək.7).




Şək.7

4. Açılmış pəncərədə qurum və ya təşkilat seçimi edilir (Şək.8).




Şək.8

5. Növbəti pəncərədə lazım olan xidmət təminatçısı seçilir (Şək.9).




Şək.9

6. Açılmış pəncərədə rəhbər şəxs seçdiyi qurum/təşkilat və xidmət təminatçısı üzrə imzalama məhdudiyyəti qoymaq/aradan qaldırmaq istədiyi işçiləri qeyd edir və məlumatları "Yadda saxla" düyməsi vasitəsilə yaddaşda saxlayır (Şək.10).




Şək.10